# Ləki-Qəbələ dəmir yolu bölgənin turizm imkanlarını genişləndirməklə bərabər, iqtisadi inkişafını da sürətləndirəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ilin əvvəlindən başlayaraq Ləki stansiyasından Qəbələyə ümumi uzunluğu 43 kilometr olan dəmir yolu çəkilir. Bu layihənin həyata keçirilməsi rayonumuzda həm turizmin, həm də iqtisadiyyatın digər sahələrinin sürətli inkişafına təkan verəcəkdir. Ləki-Qəbələ dəmir yolunun tikintisi ilə bağlı ölkə kütləvi informasiya vasitələrində müntəzəm olaraq məlumatlar verilir. "Azərbaycan" qəzetinin 19 dekabr 2018-ci il tarixli sayında qəzetin əməkdaşı Rüstəm Kamalın "Ləki-Qəbələ dəmir yolu bölgənin turizm imkanlarını genişləndirməklə bərabər iqtisadi inkişafını da sürətləndirəcək" başlıqlı yazısı dərc olunub. Rayonumuzun sosial-iqtisadi inkişafına güclü təkan verəcək layihə haqqında olan bu yazıya oxucularımızın marağını nəzərə alaraq məqaləni qəzetimizin bu sayında dərc edirik.***

Dünyada ölkələrin inkişaf göstəriciləri bir sıra parametrlərlə ölçülür. Onlardan biri infrastrukturun inkişafıdır. Son vaxtlar görülən tədbirlər sayəsində Azərbaycan dünyanın bu sahədə də inkişaf etmiş ölkələri sırasındadır. Son faktlardan biri: Dünya İqtisadi Forumunun reytinq cədvəlində yol infrastrukturunun inkişafına görə Azərbaycan dünyada 36-cı yerdədir.

137 ölkə arasında 36-cı, MDB məkanında isə birinci olmaq böyük nailiyyətdir.

Dövlət başçısı 11 dekabr 2018-ci ildə sözügedən sahə üzrə daha bir sərəncam imzalayıb. "Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə bağlı tədbirlər haqqında" olan bu sərəncam ölkədə həm dəmir yolu nəqliyyatının, həm də turizm sektorunun inkişafına hədəflənib. Sərəncamda deyilir ki, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması, digər sahələrdən gələn gəlirlərin artırılması, qeyri-neft sektorunun sürətli inkişafı Azərbaycanda aparılan iqtisadi islahatların əsas istiqamətlərindəndir: "Qeyri-neft sektorunun iqtisadi cəhətdən ən sərfəli sahələrindən biri hesab edilən turizmin inkişafı ilə bağlı son illər həyata keçirilən tədbirlər nəticəsində bu sahədə ciddi nailiyyətlər əldə edilmiş, o cümlədən turizm obyektlərinin sayı çoxalmış, xidmət sahəsi yüksəlmiş, yerli əhalinin milli turizmə marağı, eləcə də ölkəyə səfər edən turistlərin sayı xeyli artmışdır".

Bu baxımdan ölkənin əsas turizm mərkəzlərindən olan Qəbələ şəhərinə və əks istiqamətdə dəmir yolu ilə sərnişindaşımaların həyata keçirilməsi üçün Ağdaş rayonu ərazisində yerləşən Ləki stansiyasının yaxınlığından uzunluğu 43 kilometr olan yeni dəmir yolu xəttinin tikintisi turizm infratstrukturunun yaxşılaşdırılmasına və turizm obyektlərinə yetərliyin təmin olunmasına



xidmət edir.

Prezidentin qeyd olunan sərəncamı ilə Ləki-Qəbələ dəmir yolunun tikintisini həyata keçirmək məqsədilə dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitdən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə 30 milyon manat ayrılmışdır. Xatırladaq ki, Ləki-Qəbələ dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması və tikinti işlərinin həyata keçirilməsi "Azərbaycan Dəmir Yolları" QSC-yə həvalə olunub.

Prezident İlham Əliyev ölkə üzrə həyata keçirilən bu cür infrastruktur layihələrinin əhəmiyyətini vurğulayaraq demişdir: "Bu ilin birinci yarısında həm nəqliyyat, həm energetika sahələrində önəmli hadisələr baş vermişdir. May ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilmişdir. Bu, çox böyük hadisədir. Deyə bilərəm ki, bu, keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra nəqliyyat sektorunda ikinci böyük hadisədir. Ələt limanı indi uğurla fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün bu limanın çox böyük əhəmiyyəti var... Gələn ildən başlayaraq biz Bakı-Astara yolunun modernləşməsinə başlamalıyıq. Beləliklə, biz "Şimal-Cənub nəqliyyat dəhlizi"ni daha da sürətləndirəcəyik. Düzdür, indi dəmir yolu var, yüklər gedir, ancaq sürət aşağıdır. Sürəti artırmaq üçün bu istiqamətdə işlər görüləcək".

Göründüyü kimi, ölkəmizdə yerli əhəmiyyətli dəmir yolu xətlərinin yenidən qurulması və çəkilməsi istiqamətində də işlər davam edir. Bu sırada Bakı-Yalama dəmir yolunun modernləşdirilməsi layihəsinin, eləcə də icrası gələn ildən başlanacaq Bakı-Astara dəmir yolunun modernləşdirilməsi layihələrini qeyd etmək olar. Bundan əlavə, gələcəkdə Xaçmaz rayonu ərazisindən Qusar rayonuna dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Bu layihələrin icrası, o cümlədən Ləki-Qəbələ dəmiryol xəttinin inşası bölgələrdə həm turizmin, həm də iqtisadiyyatın inkişafına geniş imkanlar yaradacaq.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

## Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin başa çatdırılmasına 23 milyon manat ayrılıb

Prezident İlham Əliyev dekabrın 19-da "Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.48.11-ci yarımbəndində göstərilmiş məbləğin 23 milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

## Azərbaycan Prezidenti İlham Əliyev «Qəbələ»nin idmançısını mükafatlandırdı

Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edərək 2018-ci ilin ölkəmiz üçün uğurlu il olduğunu, bütün sahələrdə, həmçinin idman sahəsində Azərbaycanın böyük nailiyyətlər qazandığını deyib.

Çıxışının sonunda Prezident İlham Əliyev əldə olunmuş uğurlar münasibətilə idmançılarımızı bir daha təbrik edib, onlara yeni qələbələr arzulayıb.

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edilib.

Azərbaycan milli komandasının və "Qəbələ" İdman Klubunun taekvondoçusu Məhəmməd Məmmədov da mükafatlananlar arasında yer alıb. Azərbaycan Prezidenti İlham Əliyev ona yeni mənzilin orderini təqdim edib.

## Mikayıl Müşfiq-110

# Ürəklərdə yaşayan şair

***Cavan ömrüm bir mum kimi sönərkən,***
***Yüksəklərdən alçaqlara enərkən,***
***Əməllərim bir səraba dönərkən,***
***Çaxıb verdim şimşəklərə könlümü.***

**Mikayıl Müşfiq.**

Heydər Əliyev Mərkəzində görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin anadan olmasının 110 illiyi ilə əlaqədar tədbir keçirilmişdir.

Mərkəzin direktor əvəzi Kəmalə Qasımova tədbiri açaraq bildirmişdir ki, Mikayıl Müşfiq çox az yaşasa da Azərbaycan ədəbiyyatının görkəmli simaları səviyyəsinə qalxa bilmişdir. "Küləklər" adlı ilk kitabını 1930-cu ildə nəşr etdirən Müşfiqin qısa müddətdə "Günün səsləri", "Vuruşmalar", "Pambıq", "Buruqlar arasında" adlı kitabları, "Çoban", "Mənim dostum", "Səhər", "Sındırılan saz", "Azadlıq dastanı", "Buruq adamı" kimi qiymətli əsərləri çap olunmuşdur. Əsasən lirik şeir-



lər müəllifi kimi tanınan Müşfiqin yaradıcılığında romantikaya da geniş yer verilmişdir.

Qeyd olunmuşdur ki, şair uşaqları da yaddan çıxarmamış, onlar üçün "Şəngül, Şüngül, Məngül", "Kəndli və ilan" kimi mənzum nağıllar, "Vuruşmalar" "Qaya poemaları", "Coğrafiya", "Məktəbli sərgisi", "Zəhra üçün" və digər maraqlı şeirlər yazmışdır.

Janrından asılı olmayaraq Müşfiq yaradıcılığında vətənpərvərlik, vətənə məhəbbət, mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə bağlılığın əsas yer tutduğu diqqətə çatdırılmışdır.

Natiq lirik şeirlərinin bir çoxuna gözəl mahnılar bəstələndiyini vurğulamışdır. İllər keçsə də "Oxu tar", "Sənə qurban", "Sənin gülüşlərin", "Maralım", "Ana", "Küləklər", "Yenə o bağ olaydı" və digər şeirlərinə bəstələnən melodiyaların öz populyarlığını itirmədiyi bildirilmişdir.

Tədbirdə Mikayıl Müşfiqin şeirlərindən nümunələr səsləndirilmiş və sözlərinə yazılmış mahnılar dinlənilmişdir.

**"Qəbələ"**

# Xidmətin keyfiyyəti müzakirə olunub



"Azercell" şirkəti yarandığı gündən etibarən müştəri xidmətləri üzrə ölkədə innovativ metodları tətbiq etməyə davam edir. Şirkət hər il bütün diler və mağaza rəhbərlərini bir araya gətirərək, cari ilin nəticələri, abunəçilərə göstərilən xidmətin keyfiyyəti və gələcək perspektivlərin müzakirəsi ilə bağlı görüş təşkil edir. Bu günlərdə belə bir tədbir Qəbələ şəhərində baş tutub. Tədbirdə bütün Bakı və region dilerləri və "Eksklüziv" mağazaların nümayəndələri iştirak edib. Görüşdə 2019-cu ildə xidmət keyfiyyətinin artırılması üçün təklif və tövsiyələr səsləndirilib.

**"Qəbələ"**